**“İKT Parlament İttifaqının Xocalı qətliamı ilə bağlı qəbul etdiyi sənəd Ermənistana ciddi zərbədir”**

“İKT Parlament İttifaqının 13-cü sessiyasında "Xocalıya ədalət" sənədinin müzakirəyə çıxarılması və Xocalı soyqırımının insanlığa qarşı törədilən akt kimi sessiyanın yekun bəyannaməsinə əlavə edilməsi təcavüzkar Ermənistana ciddi zərbədir. Sessiyada üzv dövlətlərin parlamentlərinə bu hadisənin soyqırım kimi tanınması üçün müraciət ünvanlanması da çox əhəmiyyətli hadisədir". Bu fikirləri yap.org.az saytına açıqlamasında YAP İcra katibinin müavini, Milli Məclisin deputatı Mübariz Qurbanlı deyib. M.Qurbanlı bildirib ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində törədilmiş cinayətlər insanlıq əleyhinə yönələn cinayətlərdir. Onun sözlərinə görə, belə cinayət törədənlər harada yaşamasından, tutduğu vəzifəsindən asılı olmayaraq bu cinayətə görə cavab verməlidir. YAP İcra katibinin müavini alman faşistlərinin, Serbiyanın vəzifəli şəxslərinin insanlıq əleyhinə törətdikləri cinayətlərə görə beynəlxalq məhkəmə qarşısında cavab verdiklərini xatırladıb. O, qeyd edib ki, Azərbaycan ictimaiyyəti Xocalı soyqırımını törədən erməni canilərinin də beynəlxalq hüquqa uyğun olaraq cəzalandırılmasını tələb edir. "Ermənilərin törətdiyi Xocalı qətliamı dünya ictimaiyyətinə məlumdur. Xocalı faciəsi haqqında həqiqətləri dünyaya çatdırmaq istiqamətində Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi xətt bu gün ardıcıllıqla davam etdirilir. O cümlədən, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri, İKT Gənclər Forumunun koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə bu istiqamətdə çox böyük işlər görülür. "Xocalıya ədalət" kampaniyası həyata keçirilir və bu kampaniya müəyyən nəticələr verib. İKT Parlament İttifaqı Xocalı faciəsini insanlığa qarşı cinayət kimi qəbul edib. Bu hadisənin soyqırım kimi tanınması Ermənistanın bu cinayətdə olan nümayəndələrinin beynəlxalq hüquq çərçivəsində cəzalandırılması üçün də siyasi baxımdan əhəmiyyətli addım olardı. Hazırda bu yöndə işlər davam etməkdədir" deyə M.Qurbanlı vurğulayıb.

**Səs.- 2011.- 25 yanvar.- S. 5.**